# Azadlıq nə şirin nemətmiş...



*Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilib, o cümlədən söz azadlığı, sərbəst toplaşma azadlığı, mətbuat azadlığı, vicdan azadlığı. Azərbaycan əhalisinin 80 faizdən çoxu internet istifadəçisidir və ölkəmizdə azad internet fəaliyyət göstərir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Həmin gün mən də bir qrup mətbuat nümayəndəsi ilə Penitensiar xidmətin rəhbər işçiləri ilə birlikdə Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamının icrasını müşahidə etmək üçün Qaradağ rayonu ərazisindəki cəzaçəkmə müəssisələrindən birinə getmişdim. Əfv olunan məhbuslar sıra ilə dayanıb azadlığa çıxacağı anı səbirsizliklə gözləyirdilər. Onların arasında əcnəbi vətəndaşlar da var idi. Rəhbərlikdən icazə alıb onlardan birinə yaxınlaşdım. Sevincindən gözləri yaşarmışdı. Bir yerdə qərar tuta bilmirdi. Haradan olması ilə maraqlandım. Pakistan vətəndaşı olduğunu dedi...**

Bir il əvvəl şahidi olduğum bu hadisə zamanı söhbət əsnasında öyrəndim ki, əslən pakistanlı Nəvaz Mühəmməd narkotik maddə satdığı zaman tutulub və 15 il həbs cəzası alıb. Cəzasının 7 il 10 ayını çəkdikdən sonra Prezident İlham Əliyevə əfv olunması ilə əlaqədar müraciət edib:

-- Əfv olunduğumu bilmirdim. Həmin gün eşitdim ki, Azərbaycan Prezidenti əfv sərəncamı imzalayıb. Həbsxanada olduğum müddətdə belə əfv sərəncamları barədə dəfələrlə eşitmişdim. Mən də Prezidentə müraciət etdim. Səhvimi etiraf etdim və yazdım ki, 6 uşağım, onların anası, bir də öz anam köməksiz qalıblar. Onların yeganə ümid yeri mənəm... Axşam televizorda Prezidentin imzaladığı əfv sərəncamı elan olundu və əfv olunanların adlarını oxudular. Birdən öz soyadımı eşitdim. Qulaqlarıma inanmadım. Məhbus yoldaşlarım məni təbrik edəndə sanki yuxudan oyandım. Sevincimdən hönkür-hönkür ağlayırdım. Cəzaçəkmə müəssisəsinin rəhbərliyindən xahiş etdim ki, bu xəbəri anama çatdırmağa mənə şərait yaratsın. Sağ olsunlar, şərait yaratdılar. Telefonda yalnız bunları deyə bildim: “Ana , mən azadlıqdayam! Azərbaycanın Prezidenti məni əfv etdi...” Ardını deyə bilmədim. Məni ağlamaq tutdu. Yalnız evimizdəki qışqırtını, anamın səsini və bir də sevinc sədalarını eşidirdim. Həm həyacandan, həm də sevincdən dilim söz tutmurdu...

Əfv olunanlar arasında daha bir əcnəbi məhbus da var idi. Nigeriya vətəndaşı idi. Onu -- Ceym Uqeriyanı da söhbətə dəvət etdim. Sevincdən gözləri yaşarmışdı. Özünü güclə ələ alıb dedi:

-- Saxta dollar hazırlayıb satarkən tutuldum. Bir neçə ildən sonra dövlət başçısına əfv olunmağım barədə müraciət etdim. Prezidentin məni əvf etdiyni televizordan eşitdim. Həbsxana da olsa, çoxlu dost qazanmışam. Hamısı da azərbaycanlıdır. Hətta, mənə Azərbaycan dilini də öyrədiblər. Sizinlə də Azərbaycan dilində danışıram.

Hər iki əcnəbi vətəndaş həbsxanada onların hüquqlarının yüksək səviyyədə qorunduğunu dedilər. Nigeriyalı məhbus bildirdi ki, Azərbaycandakı kimi əfvetmə qaydası insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində çox ölkəyə nümunə ola bilər.

Onu da qeyd edim ki, bu fikiri bir müddət əvvəl ölkəmizdə Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə keçirilən tədbirdə tanış olduğum İsveçrədən gəlmiş nümayəndə Uilyam Vesten də bildirmişdi. Söhbət zamanı demişdi ki, son illər insan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş beynəlxalq tədbirlərin Bakıda keçirilməsi təsadüfi deyil:

– Azərbaycan, sözün həqiqi mənasında, insan hüquqlarının müdafiəsinə görə nümunəvi ölkəyə çevrilib. Ölkəniz bu sahədə geniş beynəlxalq əməkdaşlığını davam etdirir və böyük nüfuz sahibi olub. Mən Avropa və MDB ölkələrində insan hüquq və azadlıqlaraının müdafiəsi ilə bağlı müşahidələr aparıram. Deyə bilərəm ki, Azərbaycan bu istiqamət üzrə beynəlxalq konvensiyalara qoşulmuş, çoxsaylı qanunvericilik aktları qəbul etmişdir. Bunların icrasını və hər bir kəsin bərabər insan hüquqlarını təmin etmək üçün səmərəli mexanizm olan Ombudsman təsisatı yaradılmışdır. Ölkənizdə analoqu olmayan insan hüquqlarının müdafiəsində yeni, müstəqil mexanizm kimi təsis olunmuş bu ilk qurum qısa müddətdə özünü doğrultmuşdur. Azərbaycan Prezidentinin bu sahəyə xüsusi önəm verməsi, deyərdim ki, insan hüquq və azadlıalarının müdafiəsini daim diqqətdə saxlaması ölkənizə beynəlxalq qurumlar arasında böyük nüfuz qazandırıb.

Yeri gəlmişkən, qeyd edək ki, Ombudsman təsisatı fəaliyyəti dövründə Azərbaycanın Avropa məkanına inteqrasiyasının dərinləşdirilməsi, Avropa standartlarının daxili qanunvericilik sistemində təsbiti, digər öhdəliklərimizin yerinə yetirilməsi prosesinin sürətləndirilməsi istiqamətində tədbirlər və mütəmadi monitorinqlər həyata keçirir. Bunu Avropa Şurası Katibliyinin Siyasi Məsələlər Direktorluğunun rəhbəri Aleksandr Qessel və Avropa Şurasının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Zlotan Hernyes də etiraf ediblər. Onlar respublikamızda insan hüquq və azadlıqları istiqamətində aparılan işi, o cümlədən Ombudsman təsisatının uğurlu fəaliyyətini qeyd ediblər.

Yenidən isveçrəli diplomatın fikirlərini xatırlatmaq istərdim. O, Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsindən razılıqla danışaraq, bu vaxta qədər apardığı müşahidələrinə istinadən dedi:

– Dünyanın heç bir ölkəsində ildə 2-3 dəfə əfv sərəncamı imzalanmır. Gənc müstəqil dövlət olan Azərbaycanda isə bunu tez-tez müşahidə edirik. Bir ildə 2 və ya 3 dəfə əfv sərəncamı imzalamaq və minlərlə insana azadlıq bəxş etmək humanizm prinsiplərinin yüksək səviyyədə təmin olunmasının nəticəsədir. Mən bu barədə dəfələrlə yazmışam. Hər dəfə də Azərbaycanı insan hüquq və azadlıqlarının müdafiəsində nümunə göstərmişəm. Bunu Prezidentin hunanizm prinsiplərinin müdafiəsinə böyük önəm verməsinin nəticəsi kimi qiymətləndirirəm.

Avropalı diplomatın bu fikrini faktlarla əsaslandırmaq istərdim. Dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistliyin nəticəsində ölkəmizdə 1995-ci ildən əfv və amnistiya təsisatları yaradıldı, 1995-2003-cü illərdə 7 amnistiya aktı qəbul edildi və 32 əfv sərəncamı imzalandı. Bu amnistiya aktları 77 mindən çox insana şamil edildi, onlardan 21 min 325 nəfəri cəzasının çəkilməmiş hissəsindən azad olundu. Ümumilikdə isə, bu vaxta qədər 65 əfv sərəncamı imzalanmış, 11 amnistiya aktı qəbul edilmişdir. Bu, isveçrəli diplomatın dediyi kimi, on minlərlə məhkumun azadlığa qovuşması, insan hüquq və azadlıqlarının müdafiəsi yolunda Azərbaycan nümunəsidir.

1993-cü ildən ölüm hökmü cəzası üzərində moratorium qoyulması, 1998-ci ildə isə bu cəzanın Şərqdə ilk dəfə olaraq, Azərbaycanda tamamilə ləğv edilməsi insan hüquq və azadlıqlarının müdafiəsinə böyük önəm verilməsinin nəticəsidir.

Ölüm cəzasının ləğv edilməsi insan hüquq və azadlıqlarının qorunması ilə yanaşı, həm də nüfuzlu beynəlxalq təşkilatların, əsasən də, Avropa Şurasının bu quruma üzv dövlətlər qarşısında müəyyənləşdirdiyi əsas tələblərdən idi. Bu qurumun 1983-cü ildə qəbul etdiyi İnsan Hüquqlarına dair Konvensiyanın 6 saylı protokolunda ölüm hökmünün yolverilməzliyi birmənalı olaraq əksini tapmışdır. Ölüm hökmünün ləğvi tələbi, şübhəsiz, bu təşkilatın insan hüquq və azadlıqlarına, insanın yaşamaq hüququna necə yüksək dəyər verdiyinin əyani təzahürüdür. Bu məsələ müstəqil Azərbaycanın Konstitusiyasında da təsbit olunub.

İnsan hüquq və azadlıqlarının müdafiəsi gündəlik həyatımızda öz real təminatını almaqla yanaşı, həm də hüquqi -- normativ sənədlərdə, qəbul edilən qanunvericilik aktlarında da öz əksini tapıb.

Demokratik cəmiyyətlərin hərtərəfli inkişafı üçün zəruri olan əsas prinsiplərdən biri fikir və söz azadlığı, müstəqil mətbuatın fəaliyyətinə normal şərait yaradılması, insanların öz fikirlərini sərbəst ifadə etmələrinin təmin olunmasıdır. Azad mətbuat, azad söz demokratiya və aşkarlığın, insan hüquq və azadlıqlarının qorunmasının mühüm amillərindən hesab olunur. Demokratik təsisatların yüksək səviyyədə təmin olunmadığı ölkələrdə demokratiyanın inkişafından danışmaq əhəmiyyətsizdir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən bir neçə il sonra qəbul edilən qanunlar insanların öz fikirlərini sərbəst ifadə etməyə, söz və mətbuat azadlığına, seçmək, seçilmək hüquqna, internet azadlığına geniş imkanlar yaranmışdır. “Sərbəst toplaşmaq azadlığı haqqında”, “Siyasi partiyalar haqqında”, “Kütləvi İnformasiya vasitələri haqqında”, “Dini etiqad azadlığı haqqında” qanunların qəbul edilməsi, mitinq, küçə yürüşü və digər aksiyaların keçirilməsi üçün müvafiq yerlərin ayrılması, iştirakçıların təhlükəsizliyinin dövlət tərəfindən qorunması, sosial şəbəkələrdən maneəsiz istifadə, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaradılması və fond vasitəsilə müstəqil qəzetlərin maddi-texniki bazasının möhkəmləndirilməsi, demokratik, azad ədalətli seçkilərin keçirilməsi ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində atılan dəyərli addımlardır. Yeri gəlmişkən, Azərbaycanda keçirilən seçkiləri müşahidə etmək üçün ölkəmizə gəlmiş ABŞ unuversitetlərindən birinin professoru seçkidən sonra demişdir ki, Azərbaycanda keçirilən seçkilərdə gördüyü yeniliklər –məsələn, barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi, seçicilərin adlarının seçki keçirilən gün seçici siyahılarına salınması, seçki məntəqələrində veb-kameraların quraşdırılması ilə bu vaxta qədər heç bir ölkədə qarşılaşmayıb. Bu yeniliklər yalnız Azərbaycandadır.

Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib. Vətəndaşların hüquq və azadlıqlarının daha yüksək səviyyədə qorunması, qanunun aliliyinin tam təmin edilməsi istiqamətində işlər bu gün də davam etdirilir. Konstitusiyamızın əsas xətti və mahiyyəti tamamilə beynəlxalq normalara, əsas insan hüquq və azadlıqlarına uyğundur. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir.

Azərbaycan insan hüquq və azadlıqlarının müdafiəsində dünyaya öz layiqli töhfəsini bəxş edir. Artıq hər il dövlət bayramlarında və digər əlamətdar günlərdə əfv sərəncamlarının imzalanması, bayram günlərində yüzlərlə ailəyə, minlərlə insana ikiqat bayram sevinci bəxş edilməsi ənənə halını alıb. Hər dəfə yeni əfv sərəncamı imzalanarkən əvvəlki əfv sərəncamlarının icrası zamanı gördüklərim qeyri-ixtiyari olaraq gözlərim önündə canlanır. “Azadlıq nə şirin nemətmiş” – əfv olunanların dedikləri bu sözlər hələ də qulaqlarımda cingildəyir.

**Əliqismət BƏDƏLOV,**
**“Xalq qəzeti”**

*Məqalə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.*